Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi
Dövlət toxum nəzarəti və bitkiçiliyin təşkili şöbəsi
Fitosanitar xidmətlər sektoru

# 2024-CÜ İLİN SENTYABR AYI ƏRZİNDƏ RESPUBLİKA ƏRAZİSİNDƏ MÜŞAHİDƏ EDİLMİŞ FİTOSANİTAR VƏZİYYƏT VƏ GÖRÜLMÜŞ İŞLƏR

info@axa.gov.az

## Xülasə

Arayış Aqrar Xidmətlər Agentliyinin Bitki Mühafizəsi və Fumiqasiya (zərərsizləşdirmə) Mərkəzi tərəfindən ölkə ərazisində müxtəlif növ zərərvericilərlə bağlı aparılmış müşahidə və mübarizə tədbirlərinə dair məlumatlar əsasında hazırlanmışdır. Eyni zamanda bəzi əsas zərərvericilərin çoxillik göstəriciləri üzrə müqayisələr aparılmışdır. Arayış məlumat xarakteri daşıyır.

2024-cü ilin yanvar –sentyabr aylarında zərərli orqanizmlərlə bağlı ümumilikdə 854,7 min hektar sahədə **müşahidələr** aparılmış, 666,0 min hektar sahədə müxtəlif zərərli orqanizmlərlə **sirayətlənmə** (77,9%) aşkar edilmiş və 661,3 min hektar sahədə **mübarizə** tədbirləri həyata keçirilmişdir. 2023-cü ilin eyni dövründə isə bu göstəricilər müvafiq olaraq 881.5; 687.2 (sirayətlənmə 78,0%) və 671.0 min hektar olmuşdur **(Qrafik 1).**

**Qrafik 1. 2023-2024-cü illərin yanvar-sentyabr ayları ərzində zərərli orqanizmlərlə bağlı aparılan fitosanitar tədbirlərin müqayisəli dinamikası (min ha)**




Cari ilin sentyabr ayında ümumilikdə 31.1 min hektar sahədə **müşahidələr** aparılmış, 16.0 min hektar sahədə müxtəlif zərərli orqanizmlərlə **sirayətlənmə** (51.4%) aşkar edilmiş və 12.1 min hektar sahədə **mübarizə** tədbirləri həyata keçirilmişdir. 2023-cü ilin eyni dövründə isə bu göstəricilər müvafiq olaraq 23.8; 9.9 (sirayətlənmə 41.6%) və 5.5 min hektar olmuşdur **(Qrafik 2).**

**Qrafik 2. 2023-2024-cü illərin sentyabr ayı ərzində zərərli orqanizmlərlə bağlı aparılan fitosanitar tədbirlərin müqayisəli dinamikası (min, ha)**



**Siçanabənzər gəmiricilər *(Rodentia)***

Cari ilin sentyabr ayında müşahidə edilən sirayətlənmə sahəsi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,7 dəfə çox olmuşdur. Beləki, 2023-cü ilin sentyabr ayında müşahidə edilən sirayətlənmə sahəsi 3.1 min ha təşkil etdiyi halda, 2024-cü ilin sentyabr ayında bu rəqəm 5.2 min ha təşkil etmişdir.

2024-cü ilin yanvar-sentyabr aylarında müşahidə aparılmış 230.0 min hektar ərazinin 174.7 min hektarında (76%) sirayətlənmə aşkar edilmiş və 162,6 min hektar sahədə mübarizə tədbirləri həyata keçirilmişdir. 2023-cü ilin eyni dövründə bu göstəricilər müvafiq olaraq 222.2; 170.8 (sirayətlənmə 77%) və 162,5 min hektar olmuşdur **(Qrafik 3).**

**Qrafik 3. 2023-2024-cü illərin yanvar-sentyabr ayları ərzində siçanabənzər gəmiricilərlə bağlı aparılan fitosanitar tədbirlərin müqayisəli dinamikası (min ha)**




**Qrafik 4. 2020-2024-cü illərin yanvar-sentyabr aylarında siçanabənzər gəmiricilərlə bağlı aparılan fitosanitar tədbirlərin müqayisəli dinamikası (min ha)**



**Alaq otları**

2024-cü ilin sentyabr ayı ərzində karantin tətbiq edilməyən alaq otları ilə bağlı müşahidələrin aparıldığı 0,54 min ha əkin sahəsinin 0,49 min hektarında müxtəlif alaq otları ilə sirayətlənmə (90.7 %) aşkar edilmiş və 0,49 min ha sahədə mübarizə tədbirləri həyata keçirilmişdir.

2023-cü ilin eyni dövründə isə bu göstəricilər müvafiq olaraq 0.28; 0,21 və 0,21 min ha olmuş, sirayətlənmə 75 % təşkil etmişdir. Rəqəmlərdən də göründüyü kimi cari ilin müvafiq dövründə müşahidə sahəsində 1.9, sirayətlənmə sahəsində 2.3, mübarizə sahəsi üzrə isə 2.3 dəfə artım müşahidə edilmişdir **(Qrafik 5).**

**Qrafik 5. 2023-2024-cü illərin sentyabr ayı ərzində karantin tətbiq edilməyən alaq otları ilə bağlı aparılan fitosanitar tədbirlərin müqayisəli dinamikası (min ha)**




2023 və 2024-cü illərin yanvar-sentyabr aylarında digər alaq otları ilə bağlı aparılmış fitosanitar tədbirlərə dair məlumatlar **Qrafik 6**-da verilmişdir.

**Qrafik 6. 2023-2024-cü illərin yanvar-sentyabr ayları ərzində karantin tətbiq edilməyən alaq otları ilə bağlı aparılan fitosanitar tədbirlərin müqayisəli dinamikası (min ha)**



2024-cü ilin sentyabr ayında **karantin tətbiq edilən alaq otları** ilə bağlı müşahidə aparılmış 4622.5 hektar sahənin 1935.2 hektarında sirayətlənmə aşkar edilmişdir. Sirayətlənmənin 1896.0 hektarını (98%) Sarı sarmaşıq, 36 hektarını (1.9%) Sürünən kəkrə, 3 hektarını (0.16%) Yovşanyarpaqlı ambroziya, 0.2 hektarını (0,01%) Tikanlı quşüzümü təşkil etmiş və onlara qarşı müvafiq mübarizə tədbirləri həyata keçirilmişdir.

2023-cü ilin müvafiq dövründə isə müşahidələrin aparıldığı 2249.6 ha sahənin 907.4 hektarında sirayətlənmə aşkar edilmişdir. Bunun 793.4 hektarını (87.4%) Sarı sarmaşıq, 53.5 hektarını (5.9%) Yovşanyarpaqlı ambroziya, 50.5 hektarını (5.6%) Tikanlı quşüzümü, 10 hektarını (1.1%) Sürünən kəkrə ilə sirayətlənmə təşkil etmişdir **(Qrafik 7).**

**Qrafik 7. 2023-2024-cü illərin sentyabr ayı ərzində karantin tətbiq edilən alaq otları ilə sirayətlənmə (ha)**




### Çəyirtkələr *(Acrididae)*

2024-cü ilin sentyabr ayı ərzində çəyirtkələrlə bağlı 2.4 min ha ərazidə aparılan müşahidələr zamanı 1.1 min ha ərazidə sirayətlənmə aşkar edilmişdir. (2023-cü ilin eyni dövründə bu göstəricilər müvafiq olaraq 2.3 min, 1.3 min ha olmuşdur). Ən çox sirayətlənmə Şəki (875 ha), Ağstafa (136 ha), Qax (72 ha) rayonlarının ərazilərində müşahidə edilmişdir.

2020-2024-cü illərin yanvar-sentyabr aylarında çəyirtkələrlə bağlı aparılan fitosanitar tədbirlərin müqayisəli dinamikası **Qrafik 8-də** verilmişdir. Qrafikdən də göründüyü kimi 2023-cü ildən başlayaraq ölkə ərazisində çəyirtkələrlə sirayətlənmədə azalma müşahidə edilməkdədir.

**Qrafik 8. 2020-2024-cü illərin yanvar-sentyabr aylarında çəyirtkələrlə bağlı aparılan fitosanitar tədbirlərin müqayisəli dinamikası (min ha)**




### Pambıq sovkası *(Helicoverpa armigera)*

Cari ilin sentyabr ayı ərzində pambıq sovkası ilə bağlı müşahidələrin aparıldığı 1.5 min hektar sahənin 1.2 min hektarında sirayətlənmə (80%) aşkar edilmiş və müvafiq mübarizə tədbirləri həyata keçirilmişdir. Əvvəlki ilin eyni dövrü üzrə bu göstəricilər müvafiq olaraq 0.5 və 0.2 min ha olmuşdur.

### Tor gənəsi *(Tetranychus urticae Koch)*

Pambıq sahələrində 72.3 ha sahədə aparılmış müşadilər zamanı 70.1 ha sahədə Tor gənəsi zərərvericisi ilə sirayətlənmə müşahidə edilmiş və müvafiq mübarizə tədbirləri aparılmışdır. Əvvəlki ilin eyni dövründə bu göstəricilər müvafiq olaraq 281 və 216.8 ha olmuşdur.

Pambıq bitkisinin digər zərərvericiləri ilə bağlı ay ərzində ümumilikdə 59 ha sahədə müşahidələr aparılmış, 59 ha ərazidə sirayətlənmə müşahidə edilmiş və müvafiq mübarizə tədbirləri aparılmışdır.

### Karantin tətbiq edilən digər zərərli orqanizmlər

### Qəhvəyi mərmər bağacığı *(Halyomorpha halys)*

Cari ilin sentyabr ayı ərzində Qəhvəyi mərmər bağacığı ilə bağlı 773.82 hektar ərazidə müşahidə aparılmış, 39.37 hektar ərazidə sirayətlənmə aşkar edilmiş və 37.97 hektar ərazidə mübarizə tədbirləri həyata keçirilmişdir. Mübarizə məqsədilə 42 rayonda 985 ədəd feromon tələ quraşdırılmış və monitorinqlər nəticəsində 372 ədəd feromon tələdə 1683 ədəd yetkin fərd, 35 ədəd feromon tələdə isə 52 ədəd nimfa müşahidə edilmişdir. Həmçinin zərərvericinin qışlama fazasına keçməsi ilə əlaqədar olaraq 3 nöqtədə monitorinq keçirilmiş və zərərvericinin 2062 ədəd yetkin fərdi aşkarlanaraq mexaniki yolla məhv edilmişdir. Kütləvi sirayətlənmənin müşahidə olunduğu 25 ədəd ocaqda kimyəvi mübarizə tədbirləri aparılmışdır.

2024-cü ilin yanvar-sentyabr ayları ərzində sözügedən zərərverici ilə bağlı ölkə üzrə 4565 nöqtədə monitorinq aparılmışdır. Monitorinqlər nəticəsində 386 nöqtədə zərərvericinin qışlayan 16457 yetkin fərdi aşkar edilərək mexaniki və kimyəvi mübarizə üsulu ilə məhv edilmişdir. Həmçinin zərərvericiyə qarşı mübarizə məqsədilə 52 rayon üzrə 14414 feromon tələ quraşdırılmış, 1119 ədəd feromon tələdə 4382 ədəd zərərverici aşkarlanmışdır. Kütləvi sirayətlənmənin müşahidə olunduğu 39 ədəd ocaqda kimyəvi mübarizə tədbirləri aparılmışdır.

**Avstraliya şırımlı yastıcası *(Icerya purchasi Maskell)***

Cari ilin sentyabr ayında müşahidələrin aparıldığı 223 ha sahənin 144.7 hektarında (65 %) Avstraliya şırımlı yastıcası ilə sirayətlənmə aşkar edilmiş və zərərvericiyə qarşı müvafiq mübarizə tədbirləri həyata keçirilmişdir. Sirayətlənmə əsasən Astara (129.7 ha) və Göyçay (14.0 ha) rayonlarının ərazilərində müşahidə edilmişdir.

Ümumilikdə cari ilin yanvar-sentyabr ayları üzrə bu göstəricilər müvafiq olaraq 1098.4 və 752.7 ha olmuşdur. Sirayətlənmə əsasən Astara (488.7 ha) Lənkəran (241,0 ha) və Göyçay (21,0 ha) rayonlarının ərazilərində müşahidə edilmişdir.

**Kaliforniya qalxanlı yastıcası (*Quadraspidiotus perniciosus)***

Cari ilin sentyabr ayı ərzində müşahidələrin aparıldığı 21.9 ha sahənin 14 hektarında zərərverici ilə sirayətlənmə (64%) müşahidə edilmiş və müvafiq mübarizə tədbirləri həyata keçirilmişdir. Sirayətlənmə Lənkəran (14 ha) rayonunun ərazisində müşahidə edilmişdir. 2023-cü ilin eyni dövründə bu göstəricilər müvafiq olaraq 73.4 və 39,0 ha olmuşdur. Sirayətlənmə 53% təşkil etmiş, Astara (24,0 ha) və Lənkəran (15 ha) rayonlarının ərazilərində müşahidə olunmuşdur.

**Amerika ağ kəpənəyi *(Hyphantria cunea Drury)***

2024-cü ilin sentyabr ayı ərzində zərərverici ilə bağlı aparılmış müşahidələr (211 ha) zamanı Lənkəran rayonu ərazisində 64.5 ha, Abşeron rayonu ərazisində 37.5 ha, Xaçmaz rayonu ərazisində 1 ha sahədə sirayətlənmə aşkar edilmiş və mübarizə tədbirləri aparılmışdır.

2023-cü ilin eyni dövründə 689 hektar ərazidə müşahidə aparılmış və sirayətlənmə Xaçmaz (150 ha), Quba (100 ha), Bərdə (87.5 ha), Abşeron (68.5 ha), Lənkəran (26.2 ha) rayonlarının ərazisində aşkar edilmişdir.

Cari ilin yanvar-sentyabr ayları ərzində sözügedən zərərverici ilə bağlı 770.1 ha ərazidə müşahidələr aparılmış və 414 ha ərazidə sirayətlənmə aşkar edilmişdir. Sirayətlənmə Lənkəran (232.5 ha), Astara (68 ha), Abşeron (62.5 ha), Bərdə (50 ha) və Xaçmaz (1 ha) rayonlarının ərazisində qeydə alınmışdır.

2023-cü ilin eyni dövrü ərzində isə müşahidələrin aparıldığı 1837.8 hektar ərazinin 796.2 hektarında (Bərdə (237.5 ha), Xaçmaz (150 ha), Lənkəran (146.7 ha), Quba (100 ha), Astara (87.5 ha), Abşeron (74.5 ha)) sirayətlənmə aşkar edilmişdir.

Ay ərzində meyvə bağlarında ümumilikdə 2.0 min ha ərazidə müxtəlif zərərvericilərə, 1.4 min ha ərazidə isə müxtəlif xəstəliklərə, üzüm bağlarında isə 0,09 min ha ərazidə xəstəliklərə qarşı mübarizə tədbirləri həyata keçirilmişdir.

Qeyd edilən dövr ərzində bostan-tərəvəz bitkilərinin əsas zərərvericilərinə qarşı 222 hektar ərazidə müşahidı aparılmış və 144 hektar ərazidə sirayətlənmə aşkar edilərək müvafiq mübarizə tədbirləri görülmüşdur. Bostan-tərəvəz bitkilərinin xəstəlikləri ilə bağlı 632 hektar ərazidə müşahidə aparılmış və sirayətlənmə aşkar edilən 605 hektar ərazidə mübarizə işləri həyata keçirilmişdir.